# "Kitabi-Dədə Qorqud"dan Sirriçində nağmələr

## Dədə Qorqud: "Mənlik deyil"

Kamal ABDULLA

Dəxi mən də durum gedim -
gec oldu.
Yol getməyə taqət qalmadı,
Danışmağa dil qalmadı,
Sevməyə ürək qalmadı,
Ölməyə həvəs qalmadı -
necə oldu?
Hara itdin, mənim dəli igidim hey!
Qarşı yatan dağı aşıb hara itdin?!
Qamən axan sudan keçib hara getdin?!
Mənim dəli igidim, hey!
Geri döngil dönə bilsən,
Dönəmməsən...
Mənlik deyil.

* * *

Mən deyirəm, yad önündən çəkilməyin.
Ölüm nədi - əfsanədi, çəkinməyin.
Hardan gəldin, hardan keçdin,
Oğuzun içinə düşdün,
Əzizlərinlə görüşdün.
Saç ağarıb, hal pərişan, gözün dolu,
Bir həsrətli yuxu imiş Oğuz yolu.
Dəxi mən də durum gedim.
Qalırsan qal, gedirsən get.
Mənim dəli igidim,
Mənlik deyil.

* * *

Bu da bir iş idi -
Doğuldum, ya doğulmadım,
Amma yaşadım dünyada.
Bu da bir iş idi -
Uşaq olmaq düşmədi bəxtimə,
Doğulan kimi yaşlandım.
Dünyada bir yuxu gördüm,
Bu yuxu yaxşı yuxudu.
Bu nağıl yaxşı nağıldı,
Bu da bir iş idi.
Yenə gəldi min il əvvəlki kimi,
Bəy ərənlər dörd yanıma yığıldı,
Dünya mənim deyənlər.
Əcəl aldı yer gizlədi,
Fani dünya yenə qaldı,
Nə oldu?
Bardaş qurun, əyləşin, bəy ərənlər!
Hər şey niyə bu cür oldu - dağıldı?
Mən bilmənəm,
Mənlik deyil.

* * *

Sal yada Oğuzu, unutma Oğuzu,
Unutmasan, zor olacaq.
Unutsan -
Mənlik deyil.

* * *

Bu nə işdi, mən deyəsən yoruldum,
Ala Dağa gedən bəylər,
umurunuz açıq olsun -
Mənsiz gedin.
Av avlayan, quş quşlayan igidlər,
Yolunuz işıq olsun.
Mənsiz gedin, bu büsat
Mənlik deyil.

* * *

Baxma belə yad-yad, dönük-dönük,
Uzun yola baxma belə -
birdən gələni olar.
Yapa-yalnız yollar getsə
Trabzona, Bayburda,
Geri dönməz bir də heç vaxt, getsin nolar?!
Uzun-uzun yollar çəkib səni bağrına basar,
Bu vətəndə qalma məhzun,
Yadıma heç nə salma məhzun.
Mənsiz qocalma məhzun.
Get gedə bildiyin qədər,
Qaç qaça bildiyin qədər.
Uzun-uzun yollar çəkib səni bağrına basar -
Mənlik deyil.

* * *

Oğuz yolu, Oğuz yolu,
Dərdə batıb sağı, solu,
Zülmət dolu, əzab dolu...
Mənlik deyil.
Qara gündən qaçammazsan,
Bir sözündən qaçammazsan,
Sən özündən qaçammazsan,
Mənlik deyil.

* * *

Təkəbbürlük eyləyəni Tanrı sevməz,
Mən də ona qarğaram.
Könlün uca tutan ərdə işıq olmaz,
Mən də ona qarğaram.
Hamı getdi, Basat gəldi,
Bəyrək gəldi, Uruz gəldi,
Qanturalı, Bəkil gəldi,
Kim qaldı yolda?
Kim gəlmədi?
Mənlik deyil.

* * *

Salur Qazan, ver əlini, qalx yanıma.
Burla Xatun, Selcan Xatun,
Banuçiçək, qalx yanıma.
Aruz Qoca, gendə durma,
Aruz Qoca, bığın burma,
Aruz Qoca, heç nə sorma - qalx yanıma.
Təkəbbürlük eyləyəni Tanrı sevməz.
Bu uçurum dərin uçurum -
Mənlik deyil.

* * *

Yolun açıq olsun get,
Bir də buralara dönmə səni.
Qadir Tanrı qüvvət versin,
Qadir Tanrı qüdrət versin,

# Nəvə təbriki


Əziz Baba!
Səni yubileyin münasibətilə ürəkdən təbrik edir, Sənə can sağlığı, uzun ömür və yeni-yeni yaradıcılıq uğurları arzulayıram! Qarabağın tacı doğma Şuşamızın işğaldan azad edilməsi ad gününə ən böyük hədiyyədir. O gün olsun ad gününü doğma Şuşamızda qarşılayaq!
Öpürəm, nəvən Gökhan!



Biz vətən verəmmədik sənə,
Qadir Tanrı qürbət versin.
Get gedə bildiyin qədər.
Hamı tənha, Qorqud tək,
Get gedə bildiyin qədər.
Qoca Qorqud, yum verəyin,
Qaş qaralır, sözlər də gəlmir daha,
Gələndə də seyrək-seyrək.
Hamı tənha, Qorqud tək -
Mənlik deyil.

* * *

Vaxt var idi -
Sabah tezdən yerimdən duram derdim,
Qopuzumu bağrıma vuram derdim,
Salur Qazan harda qaldı soram derdim,
Vaxt var idi...
Sən nə dersən?
Birdən oldu hamı qeybə çəkildi,
Gözlərimə qara zülmət tikildi.
Mən derəm ki, bu ər igid Bəkildi,
Sən nə dersən, Baybura bəy?!
Bu nə işdi?
Qazan yenə uzaqlara qeyb oldu,
Beyrək getdi, İç Oğuza eyb oldu.
Bayındır xan, hər nə desən qəbuldu.
Sən nə dersən Aruz Qoca?
Bu nə işdi?
Mənlik deyil.

* * *

Səslər dolur qulağıma,
Kafir qızı, bu ki sənin səsindi.
Mənə sorma, gəlimlidi,
gedimlidi bu dünya.
Gözlər baxır ağ alnıma,
Kafir qızı, bu ki sənin gözündü.
Mənə sorma -
Mənlik deyil.

* * *

Qadir Tanrı!
Haqq adına bağışla, bağışla bizi.
Bir içim suya bağışla.
Uzaqdadı, əlçatmazdı -
Ulduza, aya bağışla.
Qadir Tanrı,
Uyqu gəldi gözlərimə, dözəmmədim,
Bu uyqunun vaqiəsin çözəmmədim,
Bir qaranlıq quyuya düşdüm.
Bu quyuya,
Bu uyquya bağışla.
Qadir Tanrı, yum verəlim.
Nə dedim, nə demədim,
unut getsin -
Qadir Tanrı, yum verəlim.
Burax göylərlə əsirdi -
Bulud.getsin.
Qadir Tanrı at ayağı kölük olur,
Ozan dili çevik olur.
Sən ki bunu bilirsən, qadir Tanrı,
Sən ki bunu bilirsən.
Nə etdinsə, sən etdin,
Nə etdinsə, sən etdin,
Yum verəlim, dəxi mən də durum gedim.
Mənlik deyil.